# Qars tarixin yaddaşında



*Faiq ŞÜKÜRBƏYLİ, AYB və AJB-nin üzvü, "Qızıl qələm" media mükafatının sahibi*

**(əvvəli ötən saylarımızda)**

**"Qarabağ" mehmanxanasının patronu (sahibi) Yakub Dəmirlə onun iş otağında tanış olduq. Öyrəndik ki, Yakub bəy 1942-ci ildə Qarsda anadan olub. Litsey bitirib, sonra Ankarada inşaatçı ixtisası üzrə təhsil alıb. Əsl türk kişilərinə xas olan xüsusiyyətləri özündə cəm edən və damarından türk qanı axan bu kişi ilə söhbət etmək maraqlıdır.**

-Ermənilərin 1988-ci ildə Azərbaycanda başladıqları haqsız və ədalətsiz savaş bizləri də bərk hiddətləndirdi. Biz ermənilərin xislətinə yaxşı bələdik. Ermənilər elə bir məxluqdur ki, onlara kömək üçün əlini uzatsan, tartıb biləyini qopardacaqlar. Onlar 1915-ci ildə Türkiyədə də soyqırımı törətdilər. Halbuki onlar burada türk vətəni olaraq sığınacaq tapmışlar. Onlar ruslarla birlik qurub bizlərə qarşı savaşa başlamışdılar. Buna baxmayaraq, Osmanı hököməti mərhəmət göstərərək ermənilərə vətəndaşlıq vermişdir. Ermənilər isə bundan sui-istifadə etdilər və soyqırımını törətdilər.

Onlar belə bir vəziyyəti Azərbaycanda da yaratmağ çalışırlar. Bütün bunlara etiraz əlaməti olaraq mən 1989-cu ildə bu mehmanxananı inşa etdirdim və adını da "Qarabağ" qoydum. Sübut etmək istədim ki, Qarabağ həmişə Azərbaycanın tarixi bir guşəsi olub.

**-Görəsən Qarsda "Qarabağ" adlı mehmanxananın açılmasına etiraz edən olmayıb ki?**

-Mehmanxananın işə başlamasından bir ay keçməmiş İrəvandan üç nəfər-bir bələdiyyə başqanı, bir vali və bir nəfər də millət vəkili gəldilər mənim yanıma. Soruşdular:-Bu hotelin sahibi kimdir?

**-Mənəm, dedim.**

-Nədən Qarabağ?

**Dedim: - Dədəm Qarabağlıdı, ona görə bu adı seçmişəm.**



Millət vəkili təəccübləndi, dedi:

**-Qars da mənim dədəmindi.**

Mən gülümsədim, dedim:

**-Siz Osmanlıların buyuruqçusu, əsgəri olmusunuz, bu ərazilərə köçürülmüsünüz.**

Onlardan biri hiddətləndi:

-Siz tarixinizi bilmirsiniz, gedin öyrənin.

Mən onlara yaxın tarixi xatırlatdım:

**- Qars vilayətində 1881-ci ildə bura köçürülən rus, yunan və erməni əsilli əhalinin məskunlaşması hesabına 81 yeni kənd salınmışdı. Bu kəndlərdə göstərilən tarixdə vilayətə gəlmiş 1.680 tüstüdə 10.744 nəfər yunan, 1.088 tüstüdə 7.072 nəfər rus və 576 tüstüdə 4.074 nəfər (52 tüstüdə 230 nəfər qriqoryan assuriyalı daxil olmaqla) erməni yaşayırdı.**

Rus hakimiyyətindən 20 il sonra, 1897-ci ilin hesablamalarına görə Qarsda əhalinin üçqat artmasına rusların kolonlaşdırmaları böyük rol oynamışdır. Erməni, yunan, yezidi, assur və süryani kimi qeyri-müsəlman qrupları ilə yanaşı, malakan, dukhobor və khakollar kimi alman və estonlar, çar idarəsində Qars və yaxın ərazisinə bu vaxtlarda yerləşdirilmişdir.

Yakub bəy deyir ki, onlar mənə təklif etdilər ki, bu mehmanxananı satım onlara. Mən isə qəti şəkildə bildirdim ki, başımı verərəm, amma vətənimin bircə qara daşını da yadlara dəyişmərəm.

**-Bəs Yakub bəy nədən gileylidir?**

-Qarsda, bizim mehmanxananın bir neçə metrliyində Azərbaycan səfirliyinin nümayəndəlyii fəaliyyət göstərirlər. Bu müddət ərzində onlar bircə dəfə də olsun gəlib bizimlə maraqlanmayıblar ki, görəsən "Qarabağ" burada nə işlə məşğul olur. Biz onlardan heç nə ummuruq, istəyirik ki, bizə təşrif buyursunlar, tanış olaq, bir stəkan çayımızı içsinlər.

**-Son olaraq Yakub bəyin sözü?**

-Azəri qardaş və bacılarıma xoş münasibətimi bildirir, onlara səmimi salamlarımı göndərirəm.

Onu da demək istəyirəm ki, türkün torpağı əsdarətdə qalmamalıdır. Türkün heç bir kəsin torpağında gözü yoxdur, onun torpağına göz dikənlərin isə gözlərinə mil çəkəcəyik.

Onu da qeyd edim ki, türk oğlu türk hər şeyi mərdi-mərdanə bağışlamağı bacarır, bircə torpağına xəyanət edənləri bağışlamır.

***P.S. Bu yazı bəzi səbəblərə görə xeyli ləngimişdir. İndi Melih bəylə Ətrabə xanımın Mələksu adlı gözəl bir qızları var. Elə mən də bu yazımı əzizim Mələksunun gül camalına bağışlayıram.***

Ədalət.- 2020.- 30 yanvar. S. 7.